# Azərbaycan mühacirlərinin matəm günü

**Barat Osmanova**
*AMEA Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru*

Birinci Dünya Müharibəsindən sonra bütün dünyada siyasi münasibətlər dəyişməyə başladı. 1917-ci ildə rus inqilabı, Çar rejiminin süqutu, çarın taxtdan endirilməsi, fəhlə-kəndli hökumətinin yaranması və Osmanlı dövlətinin üzərinə Avropa ölkələrinin hücumu müxtəlif siyasi proseslərin yaranması üçün zəmin yaratdı. Osmanlı dövlətinin zəifləməsi Azərbaycan ziyalıları üçün nə qədər üzüntü verən bir hadisə idisə, rus imperiyasının dağılması Azərbaycan üçün o qədər sevindirici idi. Çünki bütün Rusiya sərhədləri daxilində yaşayan başqa türk xalqları kimi, azərbaycanlılar üçün də bir işıq, bir ümid yolu açılmışdı. Şəraitdən istifadə edən Azərbaycan xalqı 1918-ci il mayın 28-də öz müstəqil dövlətini qurdu. Bu dövləti yaradarkən Azərbaycan türkü Türkiyəyə arxalanmış, ondan kömək istəmişdi. Dörd tərəfdən üstünə diş qıcırdan Avropa dövlətlərinin, hər dəqiqə hücumunu gözləyən Osmanlı dövləti belə xoşbəxt günündə Azərbaycanı tək qoymamış, onun köməyinə gəlmişdi. Lakin, bütün millətlərə "Ədalət, müstəqillik, azadlıq" vədi ilə türkləri illərlə əsarət altında əzən düşmənlər güclü çıxmış və Müstəqil Azərbaycan Cümhuriyyəti cəmi 23 ay yaşaya bilmişdi. Bu qısa müddət ərzində Müsavat hökuməti xalq üçün xeyli iş görmüş, maarif sahəsində, ictimai həyatda bir çox islahatlar həyata keçirmişdi.

Təəssüf ki, xalqın rifahı üçün daha çox tədbirlər həyata keçirməyi nəzərdə tutan bu hökumət, rus və ermənilərin birlikdə tərtib etdikləri planları ilə dağıdılıb, məhv edildi.

Azərbaycanın vətənsevər, mərd oğulları məcbur olub, dövləti yadlara təhvil verdilər. Bundan sonra darmadağın edilən Azərbaycan dövlət adamlarının bir hissəsi öz ölkələrində sui-qəsd nəticəsində öldürüldülər, bir hissəsi Sibirin "qarlı cəhənnəmi"nə sürgün edildilər, bir hissəsi də mühacirətə getməyə məcbur oldular. Ancaq harada olurlarsa olsunlar, nə vəziyyətdə yaşayırlarsa yaşasınlar vətən sevgisi, Azərbaycan odu daim onların ürəklərində atəşlənmiş, onlar heç bir zaman Azərbaycanı unutmamış və Azərbaycanın bir zaman müstəqillik qazanacağına inam onların qəlblərində heç zaman sönməmişdir. Buna görə də bu ziyalılar, keçmiş dövlət adamları xaricdə də vətənləri üçün əllərindən gəldiyi qədər çalışmışlar. Onlar Türkiyədə, Polşada, Fransada və s. ölkələrdə cəmiyyətlər yaradaraq, toplantılar təşkil edərək, qəzet və jurnallar nəşr etdirərək, müqəddəs amalları üçün xidmət edir, müstəqil Azərbaycanı unutdurmamağa çalışırdılar.

Dr. Əhməd Cəfəroğlunun təşkilatçılığı ilə nəşr olunan "Azərbaycan-Yurd Bilgisi" jurnalının bu sahədə xidmətləri böyükdür. Bu jurnal 1932-ci ildə nəşrə başlamış, 1934-cü ilə qədər fəaliyyətdə olmuşdur. Jurnalda Azərbaycan haqqında, onun qədim və müasir ədəbiyyatı və şairləri, tarixi, etnoqrafiyası və coğrafiyası ilə yanaşı, sovetlərin əsarətində inləyən başqa türk xalqlarının da tarixi və mədəniyyəti haqqında maraqlı məqalələr çap edilirdi.

Ancaq jurnalda ən kədərli, ən səmimi, ən yadda qalan və təsirli məqalələr azərbaycanlıların 1920-ci ilin aprelində rus istilası haqqındakı xatirələridir. Hər ilin aprel və may nömrələrində bu tipli məqalələrə xeyli yer verilirdi.

Bəzi nömrələrdə jurnalın redaksiya heyəti belə, bu faciəli matəm günü haqqında öz düşüncələrini bildirməyi özünə borc bilirdi.

"Azərbaycan-Yurd Bilgisi" jurnalının 1933-cü il, 16 saylı aprel nömrəsində də jurnalın redaksiyası adından "Azərbaycanın Böyük Matəmi. 27 aprel 1920" adlı böyük bir məqalə çap edilmişdir. Bu məqalədə Azərbaycanın bu böyük fəlakətindən bütün türklərin fəlakəti, dərdi kimi, ürək yanğısı ilə bəhs edilmişdir. Jurnal, bütün Azərbaycan mühacirləri adından bu günü fəlakət günü adlandıraraq yazır: "1920-ci il 27 apreldə, böyük Türk dünyasının köksündə azadlıq bayrağını qaldıran bir türk ölkəsinin ocağı sönmüş, Azərbaycan – Odlar Yurdu – Qızıl ruslar tərəfindən işğal edilmişdir" (1, s. 145).

Bundan sonra İran, Əfqanıstan, Türkiyə və Avropaya yayılan Azərbaycanın minlərcə azadlıq mübarizləri bu qızıl xəncərin açdığı yara ilə yaşamışdılar. Onlar Sibirin soyuq cəhənnəmində, qürbət ölkələrdə bu fəlakət gününü unutmamış, heç zaman azadlıq bayrağını yenidən yüksəltmək ümidini itirməmişdilər. Azərbaycan mühacirləri bu acı fəlakət altında Milli Azərbaycan məfkurəsinin qiymətini bir daha anlamış və öz əqidələrindən heç bir zaman dönməmişlər. İllər boyu rus istismarına qarşı aparılan şiddətli qarşıdurmalar, axıdılan qanlar, daxildən və xaricdən yüksələn azadlıq səsləri, bu millətin azadlıq əzminin nə dərəcədə yüksək olduğunu göstərir.

Türkiyədəki Azərbaycan mühacirləri 1920-ci il 27 apreldə Azərbaycan Cümhuriyyətinin süqutunun və bolşevik ruslar tərəfindən istilasının gizli məqsədini çox gözəl anlayırdılar. "Qızıl rus ordusu, əslində Azərbaycanı müstəmləkəyə çevirməyə və çar Rus imperiyasının sərhədlərini bərpa etməyə çalışırdı.

Leninin, "hər bir millət azad yaşamaq haqqına malikdir" şüarı, bolşeviklər gücləndikdən və yerləşdikdən sonra dəyişdi, milli Azərbaycan türk ordusu buraxıldı, milli quruluşlar ləğv edildi, milli məmurların yerinə ruslar, ermənilər təyin edildi. Xülasə, milli azadlıq ruhu ləğv edildi və bu ruhu daşıyan bütün Azərbaycan ziyalıları ucdantutma qurşuna düzüldülər, kiçik bir hissəsi də xaricə qaçmağa məcbur oldu" (1, s. 147).

Jurnal heyəti ürək ağrısı ilə verdiyi bu məqalədə Azərbaycan torpaqlarının dağıdılmasından, Qarabağı Azərbaycandan ayırmaq, Bakını Rusiyaya qatmaq istənilməsi məsələsinə də toxunulur. Buna müvəffəq ola bilməyincə Azərbaycana erməni və rusların kütləvi köçürülməsi planlarından bəhs olunur. Bir çox acı həqiqətləri yada salan Azərbaycan mühacirləri gələcəyə, azad günlərə heç vaxt inamlarını itirmirlər və yad istilaçıların zülmü altında inləyən, ancaq müstəqilliyə inanan Türkün bir zaman azadlığı əldə edəcəklərinə əmin olduqlarını bildirirlər.

Bundan sonra jurnalın həmin nömrəsində, Azərbaycanın ruslar tərəfindən istilası ilə bağlı Naki Şeyxzamanlının "27 aprel münasibətilə", Xəlil Nemətullahın "Zavallı Azərbaycan", krımlı Cəfər Seyid Əhmədin "Azərbaycanın istilası", "Şəfi Rüstəmbəylinin "27 aprel 1920-ci ilin xatirəsi", türküstanlı dr. M.Ə.Əhmədin "Türkün qara bir günü (27.IV.1920)" adlı məqalələri çap olunmuşdur. Göründüyü kimi müxtəlif türk ellərinin övladları olan məqalə müəllifləri Azərbaycanın dərdini, matəmini öz şəxsi dərdləri kimi qəbul etməklə yanaşı, bu matəmli günü həm də bütün türklüyün qara günü hesab etmişlər.

27 apreli Azərbaycanın qara günü hesab edən Naki Şeyxzamanlı məqaləsində rusların Azərbaycanı işğal etməsi tarixinə də toxunaraq yazır: "Tarixdə Azərbaycan iki dəfə rusların istilasına uğramışdır. Şimal türklərinin xanlıqlarını məhv edədə türk millətinin azadlığına susamış rus ordusu 1803-cü ildə Gürcüstanla razılaşdıqdan sonra Azərbaycana ayaq basmışdır" (1, s. 149). O dövrə qədər Azərbaycanda bir neçə xanlıqların olduğunu qeyd edən N.Şeyxzamanlı rusların qarşısına ilk çıxan Xanın, Gəncə xanı Cavad Xan olduğunu söyləyir. Cavad Xan ruslara qarşı mərdliklə vuruşmuş, son nəfəsinə qədər Gəncəni müdafiə etmişdir. Xanlıqları müxtəlif yollarla, bəzilərini müharibələrlə, bəzilərini siyasi razılaşma yolu ilə ələ alan ruslar, nəhayət Bakıya daxil olub, rus ordusunun komandanı Sisiyanov Bakı Xanından şəhərin açarını alarkən, bakılı Həmzə onu öldürmüşdü. Naki Şeyxzamanlı Həmzənin açdığı gülləni "nə qədər doğru və üz ağardıcı bir güllə" deyə qiymətləndirir. Müəllif müstəqilliyini itirmiş Azərbaycan türkü üçün, bu güllənin yeni "azadlıq cığırı açdığını" söyləyir. 1905-ci il rus inqilabından sonra Azərbaycanın müxtəlif şəhərlərində milli cəmiyyətlər yaranmağa başlayır. Milli azadlıq uğrunda hamı səfərbər oldu. Müharibənin ağırlığına davam gətirə bilməyən Rusiya da dağıldı və 1917-ci il inqilabı meydana gəldi. Vəziyyətdən istifadə edən Azərbaycan türkləri Azərbaycanın müstəqilliyi uğrunda fəaliyyətə başladılar. Onlar Bakıda hakimiyyəti əllərində saxlamağa çalışsalar da müvəffəq ola bilmədilər. Şəhərdə çoxluq təşkil edən ermənilər və ruslar birləşdilər. Bakı gəncləri mübarizələrini davam etdirmək üçün Lənkəranı mərkəz seçmiş və burada ordu təşkil etmişdilər. Bakıda isə erməni, rus və Bakı fəhlələrindən ibarət 70 min nəfərlik ordu toplanmışdı.

Gəncədə də rus ordusu yerli ermənilərlə birləşib hakimiyyəti ələ almaq istəsələr də, müvəffəq ola bilmədilər. Rus əsgərləri tərksilah edildi. Bakıda erməni Şaumyanın dəstələri Gəncəyə hücuma hazırlaşırkən Qafqaz cəbhəsindən qaçıb, Tiflisdə toplaşan rus ordusu evlərinə dönmək bəhanəsilə iki tərəfdən Gəncə üzərinə hücuma keçdilər. Şəmkir yaxınlığında baş verən ilk türk-rus toqquşması, Azərbaycanın müstəqilliyinin əsasını qoydu. Gəncəni ortadan qaldırmağı qarşısına məqsəd qoyan Şaumyan Mususlu stansiyasına qədər irəlilədi. Azərbaycan Türkiyəyə heyət göndərərək yardım istədi. Avropa dövlətlərinin hər tərəfdən Osmanlı dövlətini məhv etmək üçün hücuma hazırlaşdığı bir zamanda, Türk hökuməti Azərbaycan qardaşlarına yardım etmək məqsədilə Azərbaycana ordu göndərdi. Türk ordusu Azərbaycan ordusu ilə birləşərək Azərbaycanın müstəqilliyi uğrunda mübarizəyə başladılar. Eyni zamanda Tiflis seymində toplanan Azərbaycan ziyalıları 28 may 1918-ci ildə Azərbaycanın müstəqilliyini elan etdilər. Türk-İslam ordusu və məşhur "Tatar alayı"nın qarşısında dayana bilməyən ruslar Xəzər dənizi vasitəsilə Azərbaycanı tərk etdilər. Müstəqil Azərbaycan hökuməti vaxt itirmədən hər sahədə fəaliyyətə başladı.

Lakin 1920-ci il 28 mayda ölkə bayrama hazırlaşarkən, rus istilaçıları böyük qüvvə ilə, elan etmədən sərhədi keçərək, hökumətin fəaliyyətini yarımçıq qoydular və dövləti əllərinə aldılar. Lakin azadlıqsevən Azərbaycan xalqı uzun müddət bu istilaya qarşı Azərbaycanın hər tərəfində üsyanlarla mübarizə etdi. Qeyri bərabər qüvvə qarşısında azərbaycanlılar geri çəkilsələr də ürəklərindəki azadlıq hissləri sönmədi və bir günü "qara matəm" adlandıraraq azadlıq eşqilə yaşamağa başladılar.

Bu ümid, "qara gün" haqqında məqalə yazan hər bir türkün ürəyində yaşamaqdadır. Xəlil Nemətullah da "Zavallı Azərbaycan" məqaləsində müstəqilliyini itirmiş bir millətin, bir xalqın insanlarını "yetim qalmış uşaqlar" hesab edir. Müəllif yazır: "Bir türk millətinin müstəqilliyini itirməsi, düşmənlərin əlinə düşməsi, onların qanunlarına tabe tutulması nə qədər ürəyimizi sızladan və bizi qəlbimizdən vuran bir ağrıdır. Bu ağrını ancaq millətini se-

vənlər anlar, onlar hiss edər və onlar bunun yasını tutar (1, s. 153). Müəllif "Türk məğlub olar, ancaq ölməz. Bu böyük varlıq hər zaman müstəqil olmuş və müstəqil olaraq da qalacaqdır" deyərək, məqaləsini ümid dolu sözlərlə tamamlayır.

Krımlı Cəfər Seyid Əhməd də "Azərbaycanın istilası" məqaləsi ilə azərbaycanlıların dərdlərinə şərik olur. Müəllif yazısını bu sözlərlə başlayır: "27 aprel 1920-ci ildə müstəqil Azərbaycan, əsir və məzlum türk millətlərinin qanı ilə boyanmış rus imperializminin istilasına uğramışdır" (1 s. 176).

Daha sonra müəllif rusun tarixdə oynadığı rolu, başqa xalqlara münasibəti haqqında öz fikirlərini şərh edir. Krımlı Cəfərə görə "ruslar qədər tarixdən dərs almayan bir millət az tapılar. Ruslar qədər haqqı, ədaləti dillərində təkrarlayan, ancaq bunları rus həyatında, rus siyasətində tətbiq etməyən bir xalq yoxdur... Dünya tarixi və bütün millətlər Rusiyanın haqsızlıq və ədalətsizlik üzərində qurulduğunu qəbul edərkən və nəhayət dünyanın altıda birini əllərində tutaraq, hər irqə, hər dinə mənsub millətləri əsir etmiş və onların yuvalarını başlarına yıxmışkən, ruslar haqsızlığı, ədalətsizliyi həmişə uzaqlarda axtarmağa çalışdılar və uzaqlardakılara haqq və ədalət vəd etdilər" (1, s. 176). Müəllif, Azərbaycanın timsalında rus siyasətinin iç üzünü açıb göstərir. O yazır: "Tarixin, onu hiyləgərlikdə ittiham edəcəyi Lenin isə bir tərəfdən "hər millət öz müqəddəratına hakim olmalıdır... istəyən millətlər Rusiyadan ayrıla bilərlər..." deyərkən, bir tərəfdən də bu millətləri qorxunc, qırmızı fitnəsi ilə parçalamağa və onları yenidən Moskvanın qanlı pəncəsində boğmağa çalışırdı..." (1, s. 176).

Beləliklə, yeni "qızıl İmperiya" yarandı və "dünya xalqlarına azadlıq" vədlərini, Rusiya sərhədlərindən kənarda həyata keçirməyə çalışdı. Və bunu dünyanın hər millətinə onun öz dilində vəd etməyə başladı.

Müəllif daha sonra göstərir ki, "Yeni Rusiyanın sərhədləri daxilində isə o, əvvəlki zülmdən, köhnə terrordan, köhnə istismardan, köhnə ruslaşdırma siyasətindən, köhnə məhv etmə sistemindən daha qorxunc, daha təhlükəli bir üsul tətbiq edir və özünü haqlı bilir" (1, 178). Azərbaycanın, Krımın, Türküstanın, İdil-Uralın, Ukraynanın, Gürcüstanın, Belorusiyanın siyasi iqtisadi, ictimai vəziyyəti buna sübutdur. Müəllif, bolşeviklərin Türkiyəyə yardımı məsələsinə də toxunaraq, hər fürsətdə bu yardımı şişirdərək söyləyərkən türklərin də, inam və məfkurə eşqilə onları canla, qanla qurtarmağa atıldıqlarından heç bəhs etmədiklərini, yazmadıqlarını və bu həqiqəti özlərindən belə gizlədiklərini yazır.

Krımlı Cəfər Seyid Əhməd onu da qeyd edir ki, "başımıza gələn faciələr nəticəsində bütün xalqımızla birlikdə, yalnız kommunistləri deyil, rus imperializminin bütün tarixini, tarixi metodlarını, taktikalarını, yollarını artıq başa düşmüşük" (1, s. 180) və bunu yeganə təsəlli olaraq qəbul edir.

Jurnalın bu matəm nömrəsində Şəfi Rüstəmbəyli adlı bir müəllifin də "27 aprel 1920-ci ilin xatirəsi" adlı məqaləsi çap olunmuşdur. Bu məqalədə müəllif, 27 apreli başa düşmək üçün o dövrün siyasət adamlarının vəziyyətini, siyasi şəraiti araşdırır.

Məqalədə göstərilir ki, 1920-ci ilin fevralında Denikinin ordusu Azərbaycan sərhədlərinə yaxınlaşmış, Azərbaycanın daxilində isə bolşeviklərin xeyrinə təbliğat artmışdı. Əhalinin rəğbətini qazanmaq üçün, bolşevik Rusiyanın, Türkiyənin dostu, Türkiyəyə yardıma gedən və hətta Azərbaycanın müstəqilliyini tanıyan dost bir dövlət olduğu təbliğ edilirdi.

Bu böhranlı günlərdə, Mehmet Həsən bəyin Daxili işlər naziri olduğu dövründə, bolşeviklərin gücü xeyli artdı. Müəllif təəssüflə qeyd edir ki, belə həssas bir zamanda müsavatçılar, iş başına səlahiyyət sahibi, cəsarətli və qüvvətli idarə heyətinin gəlməsi üçün çalışdılarsa da, iş başında olan adamlar 27 aprelə qədər bu fikri qəbul etmədi. Yazar öz məqaləsində "Müsavat" partiyası üzvlərinin bu böhranı aradan qaldırmaq üçün Fətəli xanın evində toplandıqlarını və burada 3 maddəlik qərar qəbul etdiklərini yazır:

1. Vəkillər heyətinin rəisi Nəsib Bəyə, Mehmet Həsən bəyi Daxili işlər vəkalətindən çıxartması və yerinə "Müsavat"çının gətirilməsi səlahiyyətinin verilməsi.

2. Bundan sonra sosialistlərlə, ittihatçılar da istər istəməz kabinəni tərk edəcəklər, mütəşəkkil bir hökumət qurmaq üçün yerlərinə, dərhal həmfikir yoldaşları cəlb etmək.

3. Hökumətə geniş səlahiyyət vermək şərtilə parlamentin buraxılması və Millət Məclisinin seçilməsini tezləşdirmək (1, s. 182-183).

Türkiyədə mühacirətdə yaşayan müsavatçıların, öz canları bahasına qurduqları dövlətlərini fəlakətdən qurtarmaq üçün necə çalışdıqlarını göstərmək baxımından bu tipli xatirələrin nəşr edilməsinin əhəmiyyəti göz qabağındadır. Bakıda hökuməti yenidən təşkil etmək üçün ciddi və çətin işlər həyata keçirilərkən, erməni daşnaklar bolşevik ruslarla əlbir olub, Qarabağda böyük üsyan çıxardılar. Hökumət bu üsyanı yatırmaq üçün ordunu Rusiya cəbhəsindən çəkməyə məcbur oldu və bolşeviklərə qarşı cəbhə ordusuz qaldı. Ruslar da Azərbaycan sərhəddində toplaşmağa imkan tapdılar. Erməni üsyanı yatırılsa da, dövlət daxilində siyasi böhran gündən günə artırdı. Mehmet Həsən bəy ittihatçı və sosialistlərlə birlikdə daxildəki bolşevik hərəkatını qızışdırdı və qüvvətləndirdi. Hökumətin isə bu xainlərə qarşı hazır planları yox idi. Ona görə də bir çox məsələləri sülh yolu ilə həll etməyə çalışırdılar.

Müəllif, Mehmet Həsən bəyin

xainliyi ilə yanaşı, Əli Ağa Şıxlinskinin xəyanətindən də söhbət açır. Hərbiyə naziri Səməd Bəy Mehmandarov xəstə olduğuna görə, hökumət Qarabağda olan ordunun bir hissəsini sərhəd cəbhəsinə göndərməyi Əli Ağa Şıxlinskiyə tapşırır. Eyni zamanda ona, düşmənin yolunu kəsmək üçün Yalama körpüsünü partlatmaq tövsiyə olunur. Aparılan tədqiqatlarda Əli Ağanın bu vəzifəni yerinə yetirmədiyi anlaşılmış və nəticədə bu faciəli hadisədə əli olduğu meydana çıxmışdır.

Lakin xain əllər hökumətə uzanmaqda davam edir və hər bir yolla dövləti yıxmağa çalışırdı. Mehmet Həsən bəyin xainliyi bununla bitmir və o yeni kabinəni təşkil edərkən Məmməd Əmin Rəsulzadəyə maarif naziri vəzifəsini təklif edir. Aprelin 24-də verilən bu təklifdən sonra aprelin 26-da "Müsavat" partiyasının üzvləri toplaşmış, partiya rəhbərinə bu vəzifəni münasib görməmişlər. Hətta bəziləri Mehmet Həsənin hökuməti təşkil etdikdən sonra, bolşevik idarəsini elan edəcəyindən şübhələnmişlər və yeni kabinənin təşkilinə mane olmaq istəmişlər. Ancaq zaman bolşeviklərin xeyrinə işləmiş və aprelin 27-də gecə saat 12-də rus ordusunun zirehli qatarı sərhəd stansiyası Yalamadan keçib Azərbaycana daxil olmuşdu. Ancaq bu zaman Əli Ağanın vəzifəsini yerinə yetirmədiyi və hökumətin qərarına əməl etmədiyi meydana çıxmışdır. İttihad partiyası adından Karabekov, Sosialistlər adından Safikürtlü və bitərəflər adından Behbut Xan Cavanşir Nəsib Bəyin evindəki toplantıda iştirak etdilər və son vəziyyətdən çox məmnun olduqlarını heç gizlətmədilər. Müsavatçıların Bakını tərk edərək mərkəzin Gəncəyə köçürülməsi və oradan bolşeviklərə qarşı mübarizə etmək təklifinə qarşı, başqa partiya rəhbərləri etiraz edərək, hökumətin Bakıda qalmasını və müstəqilliyimizi qan tökmədən bolşeviklərə təslim etməyi müzakirəyə qoymağı təklif etdilər. Həmin gün saat 12-də parlament üzvlərinin xüsusi yığıncağı toplandı. Sosialistlər və ittihadçılar milli hökumətin bolşeviklərə verilməsini sevinclə elan etdilər. Məqalə müəllifi yazır ki, "Bu zaman bolşeviklər Behbut Xan Cavanşirin evində toplaşmış, səbirsizliklə parlamentin qərarını gözləyirdilər" (1, s. 186).

Artıq rus imperialistləri, azadlığın dadını almış Azərbaycanı ikinci dəfə yenidən istila etdilər.

Bu xəyanətləri ürək ağrısı ilə bir daha xatırlayaraq yazan Şəfi Rüstəmbəyli də məqaləsini nikbin ruhla bitirərək yazır: "Ruslar, həqiqətdə Azərbaycanı istila etdilərsə də, milli Azərbaycan türkünün azadlıq ruhunu əlindən ala bilmədilər" (s. 186).

Jurnalda Azərbaycanın matəm gününə həsr olunmuş məqalələrdən biri də türküstanlı dr. M.Əhmədin "Türkün qara bir günü" adlı məqaləsidir. Adından da görüldüyü kimi türküstanlı Əhməd də Azərbaycan türklərinin matəminə qoşularaq, 27 apreli "Türkün qara günü" adlandırır və yazır: "Türk tarixi bu qara günü öz dəyərli yarpaqları arasında bir vəhşilik və intriqa nümunəsi olaraq gələcək nəsil üçün saxlayıb göstərəcəkdir" (1, s. 187).

Müəllif rusların dözülməz əsarəti altında yaşayan Azərbaycan xalqının azadlıq və qurtuluş eşqinin sönmədiyini Azərbaycan şairi Gültəkinin (Əmin Abid – B.O.) aşağıdakı şeiri ilə oxucusuna çatdırır:

*Halk ezilmedikçe vicdan haykırmaz*
*Hakkı alınana: Ölüm bile az*
*Sana dokunmayan ele gül üzat*
*Hakkını çığniyen kafayı kır, at.*

Müəllif Azərbaycan haqqında deyilmiş bir sözü də xatırladaraq və həmin fikrə qoşularaq "bu qardaş ölkənin aramızdakı özünəməxsus mühüm mövqeyi və bu mövqeyin böyük əhəmiyyəti və qiyməti" kimi "Azərbaycan türk ölkələri arasında bir körpü vəzifəsini görür" sözləri ilə məqaləsini bitirir (1, s. 188). Daha sonra bir Azərbaycan uşağının 28 aprel günü şəhər bayram edərkən evdə ağlayaraq həbs edilmiş atasının nə vaxt gələcəyini soruşduğunun şahidi olan müəllif, türk xalqlarının çəkdiyi iztirabın eyni olduğunu söyləyir. "Əminəm ki, sevgili Türküstanın – ana yurdun doğma övladları bu günü (27 aprel), Türküstanın fəlakət günü hesab edir və ağlayır" (1, s. 188). Bütün mühacir yazarlar kimi türküstanlı dr. M.Əhməd də məqaləsini nikbin notlarla tamamlayır: "Bundan sonra bu matəmli günü tarixi bir hadisə kimi xatırlayacağıq. Azad və xoşbəxt vətəndə bu acı və qara günü, ancaq xoşbəxtlik və səadətin qiymətini artırsın, deyə yada salacağıq" (1, s. 188).

Rusun işğalından, zülmündən qaçan bütün türk mühacirlər vətəndən uzaq, vətənə həsrət, lakin bir-birlərinin matəm günlərində bir-birlərinə yaxın, dərdlərinə ortaq yaşayaraq, bir-birlərinə təsəlli verərək ümidlərini itirməmiş, azad günlərin gələcəyini gözləmişlər. Nəhayət, o gün gəlib çatdı və türk elləri rus əsarətindən azad oldu. Təəssüf ki, ürəkləri vətən eşqilə yanan, azadlıq mücahidlərinə bu günləri görmək qismət olmadı.

**Ədəbiyyat:**

1. "Azərbaycan-Yurd Bilgisi" jurnalı, 1933, sayı 16.

**Barat Osmanova**

**The mourning day of Azerbaijani emigrants**

**Summary**

The article describes the attitude of Azerbaijani emigrants living in Turkey to the Russian subjugators who destroyed the Azerbaijani Republic and their views on freedom and independence of Azerbaijan.